UOT 555 A 749 İ

**Z. İ. ƏSGƏROVA, A. G. HEYDƏROVA**

**Heydər Əliyev adına AAHM**

# İNGİLİS ONOMASTİKASINDA GEDƏN ƏSAS PROSESLƏR

İgilis dilinin toponimlərinin yaranma səbəbləri, inkişaf mərhələləri və bunların xalqın tarixinin və mədəniyyətinin müəyyənləşdirilməsində rolu haqqında məlumat verilir.

Toponomika-(qədim yunan dilində topos-yer, onoma-ad) coğrafi adları, toponimləri, onların mənasını, quruluşunu, mənşəyini və yayılma arealını öyrənir.

Toponomika-nisbətən yeni dilçilik sahəsi olsa da, qədim qəbilə, tayfa və xalqların tarixi, etnogenezi, dil daşıyıcıları haqqında çox qiymətli materiallar verir.

Köçəri tayfaların miqrasiya yolları, qohum və qohum olmayan etnosların əlaqə növləri və münasibətləri barədə olan məlumatlar bu elmin tədqiqi nəticəsində meydana çıxır. Bu planda hər bir toponimi, onu yaradanların mədəniyyət abidəsi sayılmalıdır. Xüsusi olaraq toponomiyanı bir növ insan tarixinin kodu kimi təsəvvür etmək olar. Burada ənənələr, dil formaları və dilin özü qalır, dünyani anlamaq səviyyəsi öz əslini tapır və xalqın həyatına ən mühüm hadisələr hopur.

Hər bir ərazinin toponimləri məcmusu onun toponomiyasını təşkil edir. Azərbaycan toponomiyasının əsas fondunu Azərbaycan (türk) mənşəli adlar təşkil edir. Azərbaycanda qədimdən başlayaraq, hun, bolqar, suvar, peçeneq, xəzər, qıpçaq, oğuz-səlcuq və monqol qayadalarının, həmçinin, iber-Qafqaz, ərəb, fars və s. xalq adları ilə bağlı toponimlərin mövcudluğu onların tarixi münasibətləri ilə əlaqəlidir.

Toponimlərin tarixinin və mənşəyinin tədqiqi, tarixin bəzi qaranlıq məqamlarının aydınlaşdırılması üçün əhəmiyyətli və dəyərli faktlar mənbəyi hesab oluna bilər. Etnoqraflar və tarixşünaslar üçün toponomik materiallar etnosun tarixi, dili, formasiyası və s. aspektlərinin öyrənilməsində tutarlı dəlillərdir.

Qeyd etmək lazımdır ki, toponimlərin müəyyən ərazidə yaşamış qəbilələrin, tayfaların adından, bəzən də həmin yerin relyefindən, coğrafi şəraitindən asılı olaraq yaranır. Məhz bu aspektdən də ingilis toponomikasının tədqiqi və öyrənilməsi aktual məsələlərdən biridir.

İngilis onomastikasında gedən əsas prosesləri düzgün müəyyənləşdirmək üçün ilk növbədə tarixi məlumatları, toponimlərin tarixi, yayılma arealı, etnotponimlərin ifadə etdiyi obyektlər, onların koordinatları, təbii şəraiti və s. dəqiq araşdırılmalıdır.

Onomastik vahidlər xalq təfəkkürünün məhsuludur, insanın maddi və mənəvi həyatını hərtərəfli nümayiş etdirir. Bu vahidlər onomastika elmində öyrənilir. Onomastik leksika dilin leksikasının xüsusi bir qatıdır. Onun bir növü olan antrotoponimlər dilin lüğət tərkibində xüsusi sosial və linqvistik cəhətləri ilə fərqlənir. Onlar xalq yaradıcılığının məhsulu olub, cəmiyyətin hər bir üzvünə kollektiv tərəfindən verilir.

Bütün dövrlərdə və sivilizasiyalarda insanlar şəxsi adlara malik olublar. Şəxsi ad, ayrıca götürülmüş insanla ünsiyyətə girmək və onun haqqında başqaları ilə söhbət apara bilmək üçün onu fərdi səviyyədə göstərməyə, nişan verməyə xidmət edən xüsusi sözdür. Şəxs adları tarixin bütün dövrlərində cəmiyyətdə baş verən ictimai hadisələri böyük həssaslıqla xarakterizə etmiş, həyatda, insanların məişətində və yaşayış tərzində gedən dəyişikliklərdən asılı olaraq zənginləşmişdir.

Antrotoponimlər xalqın dili, tarixi, etnoqrafiya və psixologiyasını yaşadan, milli etiket funksiyasını yerinə yetirən onomastik vahidlərdir.

Qeyd etmək lazımdır ki, mənbələrdə İngilis onomastik leksikasının heç də hamısı öz həqiqi mənasında düzgün yazılış qaydasında verilmir. Xüsusən də başqa xalqların nümayəndələri çox vaxt

onlar üçün aydın olmayan coğrafi adları hərfi tərcümə edir və ya oponomik adları səhv tələffüz etdikləri kimi qeydə alırlar. Bu çox ciddi hal və problem kimi toponimlərin mənşəyinin müəyyənləşdirilməsində çətiliklərin yaranmasına səbəb olur.

İngilis onomastikasında gedən əsas proseslərdən biri də ayrı-ayrı antroponim və toponimlərin mənşəyini, inkişaf tarixini müəyyənləşdirməkdir. Bu da öz növbəsində dilin tarixinin öyrənilməsi, eləcə də tarix üzrə qrammatika sahəsində araşdırmalar aparılması baxımından əhəmiyyətlidir.

Beləliklə, antroponimlər və ya şəxs adları olan onimlər hər bir etnosda olduğu kimi ingilis sivilizasiyasında da mühüm rol oynamışdır. Uzun müddət onlar həm adı daşıyana və eyni zamanda onu verənlərin hər ikisi üçün olduqca vacib olmuşdur. Məsələn, qəbilə mədəniyyətlərində yeni doğulanlara onların etnik keçmişlərini, qəbilənin totemləri ilə sıx bağlı olan ad və adlar vermək mümkün idi.

Uşaqlara eyni zamanda şər qüvvələrdən, onları qorumaq üçün sehirli adlar da vermək mümkün hesab olunurdu. Adların, həmçinin, onları daşıyana müəyyən pozitiv xarakterlər-fiziki sağlamlıq, güc, xoşbəxtlik, şərəf, var-dövlət və s. kimi müsbət elementləri bəxş edə bilmələrinə inanılırdı. Məsələn, ingilis dilində olan, Latın mənşəli Laura adı “qələbə”, Vivian adı (Latın mənşəli) “həyat dolu” , Maxim (Latın mənşəli) “dahi”, Rose, Rosabel, Rosalia “gözəl”, Justine “ədalət, şərəf” kimi müsbət elementləri simvolizə edir.